**Olaylar.** - 2020. - 18-19 iyun. - № 49. - S. 14.

# Qərbi Azərbaycanın Zəngəzur bölgəsinin Laçın nahiyəsinin sakral toponimləri, maddi-mənəvi irsi və coğrafiyası

**(I məqalə)**

**Qismət Yunusoğlu,**
Bakı Dövlət Universietinin müəllimi

**Bax gözüm, dolan gözüm,**
**Sulanıb dolan, gözüm.**
**Getdim, bəlkə gəlmədim,**
**Dağları dolan, gözüm.**

**1905-1920-ci illərdə azğınlaşmış erməni-daşnak quldur dəstələrinə qarşı Zəngəzurda və Qarabağda xalq müqavimət hərəkatının təşkilatçısı və qəhrəmanı əslən Laçın nahiyəsinin Kürdhacı kəndindən olan Sultan bəy Əlipaşa bəy oğlunun (1871-1955) 1920-ci illərin əvvəllərində doğma Vətəninin şimal hissəsindən ayrılaraq Cənubi Azərbaycana köç edərkən söylədiyi bayatı.**

Qərbi Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə sərhəddində uzanan Zəngəzur dağlıq silsiləsi (Qapıcıq zirvəsi, 3906 m, Kiçik Qafqaz dağlarının Azərbaycan Respublikası ərazisində ən hündür yeri) ilə Qarabağ dağlıq silsiləsi (Qızqala zirvəsi, 2843 m) arasında yerləşən Qarabağ dağlıq yaylası (Dəlidağ zirvəsi, 3616 m) əski Zəngəzur bölgəsi hüdudlarını bütünlüklə əhatə edən qədim tarixi-coğrafi ərazi olmaqla, həm də zəngin maddi-mədəni və sakral-mənəvi irs abidələri ilə zəngin olan yurdumuzun düşmən hədəflərində olan bir hissəsidir.

Ümumilikdə, Qərbi Azərbaycanın ayrı-ayrı sakral coğrafi məkanlarında, ayrılıqda Zəngəzur ərazisində islamaqədərki Alban mədəniyyətinə və müsəlman-türk dünyasına məxsus dini-irfani, müqəddəs ziyarət-ibadət məkanlarının, mistik-ruhsal ocaqlarının yaranması ilə yanaşı, etimoloji-morfoloji sakral genetik yer adlarının (toponimlərinin) inzibati-ərazi vahidi kimi yaranması da istisna deyil, xüsusilə Laçın nahiyəsi hüdudlarında.

Ərazidə üstünlük təşkil edən etno-genetik sakral düşüncə-şüur təməlindən və milli-etiqad dəyərlərindən yaranan yer adlarının (sakral toponimlərin-teotoponimlərin) üstünlük təşkil etməsi ilk növbədə bölgənin Alban mədəniyyəti dövrünə qədərki, həmin dövr və eləcə də İslam mədəniyyəti tarixinin əski kökləri ilə bağlıdır. Bu baxımdan nahiyənin Hacıxanlı, Hacılar, Mollalar, Kürdhacı, Hacısamlı, Böyük Seyidlər, İmanlar, Yığın Seyidlər və Haqnəzər kəndlərinin adlarını çəkmək kifayətdir. Qeyd etmək lazımdır ki, tarixi dövrlər ərazində bütöv Azərbaycan coğrafiyası üçün sakral toponimlərin əmələ gəlməsi daha səciyyəvi olmuşdur. Bu baxımdan "Seyidlər" toponiminə bütöv və bütün Azərbaycan ərasizinin inzibati-ərazi vahidi kimi Xaçmaz, Samux, Zərdab, Saatlı, Salyan, Ağdam, Zəngilan, Kəlbəcər, Basarkeçər, Mehri rayonlarında, eləcə də Cənubi Azərbaycanda Qəzvin nahiyəsində rast gəlinməkdədir.

Laçın nahiyəsinin Höcazsu və Həkəri çayları arasında, Şəlvə çayı sahilində, yüksək dağlıq ərazidə, altı-üstü meşəlik sahədə (Minkənd kəndinin yaxınlığında) yerləşən Böyük Seyidlər kəndinin mövcud tarixi-coğrafi etimoloji irsi, sakral maddi abidələri xüsusilə əhəmiyyətlidir. Bu kənd Laçın şəhərindən 10-15 km şimal-qərbə tərəf yerləşməklə qədim tarixi-coğrafi, dini keçmişi ilə fərlənən yaşayış məntəqələrimizdəndir. Belə ki, bu kəndin müqəddəs, ziyarət olunan seyid ocaqlarının (ailələrinin) ayrı-ayrı ərazilərə paylanması nəticəsində Laçın rayonunda Yığın Seyidlər kəndi (bu kənd Qırxqız dağının ətəyində, Şuşa şəhərindən 70 km aralıda yerləşir, əsasını Məşədi Mehdi Mehdixan oğlu qoyub), Ağdam rayonunda Seyidli kəndi yaranmış, eləcə də müxtəlif yerlərdə onların adları ilə bağlı müqəddəs-ziyarətgah ocaqlarının törəməsinə səbəb olmuşdur.

Bu sırada Qarabağ bölgəsinin məşhur "Seyid Lazım Ağa ocağı"nı (hazırda Ağdam rayonu, Çəmənli kəndində türbəsi yerləşir) göstərmək olar.

Seyid Lazım Ağa 1880-ci ildə Zəngəzur qəzasının Laçın nahiyəsinin Böyük Seyidlər kəndində doğulub, "Quranı-Hafiz" olub, böyük kəramət sahibi kimi Ağanın ailəsi Çəmənli kəndinə yüzbaşı Alı bəyin dəvəti ilə köçüb, bir müddətdən sonra Şıxbabalı kəndində yaşayıb. Seyid Lazım Ağa 4-cü imamımız Həzrəti-Əli ibn-Hüseyn Zeynülabidinin (659-713) nəslinə mənsub olub. 1914-1920-ci illərdə xalq qəhrəmanı Sultan bəy Əlipaşa bəy oğlunun müqavimət dəstəsində daşnak-erməni quldurlarına qarşı (A.Ozanyanın başçılığı ilə) döyüşmüşdür.

Ümumiyyətlə, deyilənlərə görə, Böyük Seyidlər kəndinin əsasını XII-XIII əsrlərdə Səudiyyə Ərəbistanın Hicaz bölgəsindən köçüb gəlmiş tərəkəmə-bədəvi ailələlərindən olan Seyid Əli Xəlifənin soyu-şəcərəsi tərəfindən qoyulmuşdur. Zəngəzur və Qarabağ bölgəsinin ən ağır-kəramətli seyidlərindən biri kimi Seyid Əli Xəlifə bu kənddə dünyasını dəyişmiş, onun məzarı üstündə sərdabə tikilmiş və məşhur ziyarət ocağı kimi dini-irfanı məbədə çevrilmişdir.

Onun nəsil şəcərəsindən olan "Seyid Hüseyn ocağı" da bu kəndin ziyarətgahı olmaqla, ətraf kəndlərdən, ellərdən gələn ziyarətçilərin, ibadət əhlinin üz tutduğu sakral məkanlardan biridir.

Qarabağın tanınan kəramət-irfan sahiblərindən olan Xudavəndə Xəlifənin nəvəsi Hacı İbrahim ağanın bu kənd qəbirstanlığındakı məzarı "Güllü qəbir piri" də müqəddəs yer kimi Böyük Seyidlər kəndinin ibadət ocağıdır.

Böyük Seyidlər kəndinin sakral və maddi-tarixi abidələri sırasındakı nadir tikililərdən biri də XVII-XVIII əsrə aid Həkəri çayının sağ qolu olan Şəlvə çayı üzərindəki birtağlı "Seyidlər körpüsü"dür.

Sakral-toponimik coğrafi məkan olan Böyük Seyidlər kəndinin dini-irfani soylarından Seyid İsmayıl Məşədi Məmi oğlunun (1828-1914) və Seyid Məşədi İmran Ağanın (1840-1932), Hacı Mirəziz ağanın (1867-1928) adları xüsusi ehtiramla çəkilir. Həm də tərəkəmə ailələri kimi onların qış düşərgələri Aran Qarabağda Xaçınçayın Şahbulaq hövzəsində, yay otlaq binələri isə Dəlidağın, Keçiddağın yaylaqlarında (əsasən "Hürü yaylağı", "Ağ düz yaylağı", Lolabağırlı kəndindən 5-10 km aralıda) qurulardı.

Belə deyirlər ki, Hacı Mirəziz ağa arandan yaylağa tərəkəmə elatı ilə köç edəndə Xaşınçay çayının yuxarı hissələrində (Vəngli, Dovşanlı kəndləri yaxınlığında) bir neçə erməninin zəmisinə ilxısı girir, əkinə ziyan vurur. Hay-daşnak ünsürləri bundan hirslənib Ağa ilə şiddətli mübahisə edir, tək bir nəfərdən başqa. Ağa əli ilə onu göstərir və haylara cavab verir ki, sizi görüm hamınız bu bir nəfərin umuduna qalasınız.

El yaylaqdan qayıdanda məlum olub ki, Ağa göstərdiyi hayın zəmisindən başqa qalanlarınkı yanıb külə dönüb...

Seyid Məşədi İmran Ağa Sultan bəyin ən yaxın silahdaşlarından və məclisinin hörmətli şəxslərindən idi. O, Xorasan şəhərində 12 ali dini təhsil alsa da, 1905-1918-ci illərdə Zəngəzurda və Qarabağda hay-daşnak quldurlarına qarşı döyüşlərdə iştirak etməklə yanaşı, həm də yerli özünümüdafiə dəstələrinin təşkilində və təminatında yaxından iştirak etmişdir, qardaşı Seyid İsmayıl Ağa ilə birlikdə.

Halal və bərəkətli heyvandarlıq təsərrüfatı ilə məşğul olan Seyid İsmayıl uca böylu, pəhlivan cüssəli və qüvvətli bir igid olub. Zəngəzurda tanındığı kimi, yaxın Naxçıvanda, Borçalıda, Cənubi Azərbaycanda, hətta Dərbənd mahalında da iqtisadi-ticari əlaqələri olmuşdur.

XIX əsrin 50-60-cı illərində belə ticari-tərəkəmə ilişgilərin yapıldığı indiki Mahaçqala şəhərinin bazarında sürü ilə apardıqları heyvanların işərisindəki çılğın bir cöngəni ərən-erkəklər tuta bilmirmiş. Yaxınlığdakı bulaqdan səhənglə qayıdan bir qız səhəngi bir qırağa qoyaraq ələ keçməyən, vurnuxan, özünü daşa-divara çırpan cöngənin singirindən (arxa qıçlarının qatlanan yerindən) tutur... verir... əldən düşmüş tərəkəmələrə. Seyid İsmayıl bu mənzərəyə kənardan baxırmış, adını belə bilmədiyi, soyunu-kökünü tanımadığı bu cəngavər gözəlin hərəkətləri onu tutur və elə oradaca əhdini kəsir.

Nəhayət, uzaq Zəngəzur dağlarından, Qarabağ mahalından gələn Seyid İsmayılın dəstə-qəfiləsi ticari işlərini görüb qurtarır, geri qayıtmaq məqamında Ağa onları geri yola salır, özü isə orada qalası olur.

Bir neçə gündən sonra Seyid İsmayıl yorğa kəhərin belində gəlir həmin bulağın üstünə, yenə səhənglə suya gələn həmin qızdan içməyə su istəyir. Bulaqüstdə tayqulp mis qabı uzadan qızın qolundan yapışan Seyid onu anidəcə tərkinə alır və çaparaq götürülür. Kəhərin nalından qopan çınqılar güllə səsi çıxarır. Qaçırıldığını bilən qız Seyidin belindəki xəncəri qınından siyirir onun başına vurur, yaralayır. Cavabında Ağa deyir ki, başımı kəssən də, leşim səni buraxmaz. Beləcə, bir xeyli çapdıqdan sonra bir yurd yerində dayanırlar. Seyid İsmayıl fikrini və özünün subay olduğunu bildirir, ürəyi yumşalan qız köynəyi ilə Seyidin yarasını sarıyır və üstəlik ürəyini də ona verir. Ağa Nənəxanım adlı həmin qızı gətirir Böyük Seyidlər kəndinə, onunla ailə qurur və ömrünün sonunadək birgə yaşayırlar, onların məzarları kənd qəbirstanlığındadır.

O dövrün tarixi olaylarını yaşadan yaşlı adamların (Lolabağırlı kənd sakinləri Məşədi Tanrıverdi Məşədi Allahverdi oğlunun (1840-1910), Paşa Məşədi Tanrıverdi oğlunun (1880-1984), Bəyimxanım Paşa qızının (1924-2008), Böyük Seyidlər kənd sakini Seyid Məhəmmədtağı Seyid Əli oğlunun (1899-1987)...) söhbətlərinə görə, bu hadisədən bir xeyli keçəndən sonra Dağıstandan, qız evindən 10-15 atlı dəstə-qafilə gəlir Böyük Seyidlər kəndinə, görsünlər ki, qızları necə yaşayır, ailəsi kimdir... özləri ilə bərabər dizi aynalı, əli toqqalı bir pəhləvan da gətiriblərmiş... Qonaqlar yurda-ocağa çatanda Seyid ismayıl evdə yox imiş, yaylaqda imiş. Axşamtərəfi o da gəlir, həyətdə oturan ağsaqqallarla, qonaqlarla görüşür... və qıraqda meydan gözləyən pəhləvanının əlini necə sıxırsa qonağın barmaqları partlayır, qan fışqırır...

Böyük Seyidlər kəndinin irfan-iman ocaqlarının davamçılarından olan Seyid Mirəli Seyid Məhəmmədtağı oğlu kəramət sahibi kimi sələflərinə layiq bir ömür yaşamaqdadır. Keçən əsrin 50-ci

illərinin sonunda baş verən bir hadisə haqqın və halallığın dəyərləndirilməsi üçün daha ibrətamizdir. Belə ki, o yaşda onun bir qoyunu və bir quzusu olanda, onları da kəndin sürüsünə qatıb yaşlı coban həmkəndliləri ilə otaranda amansız tamah çobanlardan birinin ağlını başından alır, onu şeytani yola sürükləyir, gizlincə quzunu kəsib evinə aparır. Xəbər tutan balaca Mirəli ağlayır, sıtqayır, nəticəsi olmur, hətta həmin adamdan ağır söz də eşidir. Bir neçə gündən sonra yaylaqda həmin sürünü ildırım vurub külə döndərir (380 baş qoyun-quzu ilə birgə) və həmin çobanı da öldürür...

Ümumiyyətlə, Azərbaycanın sarkal coğrafiyasının təşəkkülündə ruhsal-duyğusal inanc ocaqlarından doğan teotoponimlərə bütün bölgələrdə rast gəlinir və onlarla bağlı el deyimlər həm də tarixi məlumat-bilgi yükü daşımaqdadır. Bu baxımdan Laçın nahiyəsinin Lolabağırlı kəndində keçən əsrin 20-ci illərində məskunlaşmış Seyid İsmayılın (1890-1965) ailəsi hay-daşnak qulduru A.Ozanyanın 1915-1920-ci illərdə Qərbi Azərbaycanın Göyçə mahalına basqınlar edərkən əvvəlcə Naxçıvana (Ordubad nahiyəsinə) köçmüş, bir müddətdən sonra bu kənddə yurd-yuva qurmuş, dinclik tapmışlar. Ona el arasında "Qara Molla" deyirdilər. İnanılmış kəramət sahibi, savadlı din xadimi və iman əhli olduğundan ətraf rayonlardan (Cəbrayıl, Bərdə, Ağdam, Zəngilan, Gorus...) da yanına ziyarətə gələnlər olurdu. Haqqı danıb nahaqqa üz tutanalara camaat öz etirazını belə bir deyimlə bildirirdi:

- Səni görüm, ağzını Qara Molla yumsun.

**(Yazının hazırlanmasında Qərbi Azərbaycanın Zəngəzur mahalının Laçın nahiyəsinin Lolabağırlı kənd sakini Hacı Bayram Paşa oğlunun (1936), Böyük Seyidlər kənd sakinləri Seyid Mirəli Seyid Məhəmmədtağı oğlunun (1949) və Qabil Seyid Mirəli oğlunun (1980) məlumatlarından istifadə edilmişdir.)**